Təqdimat



# "Türkdilli ölkələrin milli musiqi alətləri"

**Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Türk Mədəniyyəti və İrsi Fondu və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə hazırlayıb nəşr etdirdiyi "Türkdilli ölkələrin milli musiqi alətləri" kitabının təqdimat mərasimi keçirilib.**

Muzeyin direktoru, akademik Rafael Hüseynov "Türkdilli ölkələrin milli musiqi alətləri" kitabının nəşrini mədəniyyət sahəsinin mühüm hadisəsi kimi dəyərləndirib. Prezident İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır", sözlərini xatırladan akademik bildirib ki, dövlətimizin başçısı türk xalqlarının oxşar milli irsinə, dəyərlərinə, mental xüsusiyyətlərinə həm də güclü ideoloji-siyasi amil kimi yanaşır. Alim ictimaiyyətə təqdim olunan kitabda çoxsaylı elmi mənbələr əsasında türkdilli xalqlar arasında ən geniş yayılmış 104 ənənəvi musiqi aləti haqqında dəyərli məlumatların toplandığını bildirib.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova Türk dünyasının mədəni dəyərlərinin qorunması, bərpası və təbliği istiqamətində rəhbərlik etdiyi qurum tərəfindən həyata keçirilən beynəlxalq layihələr və görülən işlər barədə danışıb, təqdim edilən kitabın önəmini vurğulayıb. Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini, millət vəkili Günay Əfəndiyeva Azərbaycan, türk, rus və ingilis dillərində oxuculara təqdim olunan nəşrdə Azərbaycan muğamı, musiqi mədəniyyətinin ən qədim sahələrindən biri olan aşıq sənəti barədə də məlumatların yer aldığını söyləyib.

"Ön söz"ün müəllifi BMA-nın rektoru, professor Fərhad Bədəlbəyli bu layihənin türk birliyinin möhkəmləndirilməsinə, türkdilli xalqların zəngin ənənəvi musiqi irsinin araşdırılmasına və qorunub saxlanmasına dəstək olacağına əminliyini bildirib. Türkiyənin Osmaniyə Qorqut Ata Universitetinin baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Meysər Kaya kitabın türk xalqlarının musiqi mədəniyyətinə verdiyi töhfədən danışıb. Üzeyir Hacıbəyli adına BMA-nın prorektoru, professor Gülnaz Abdullazadə müxtəlif sahələr üzrə belə sanballı kitabların hazırlanmasının vacibliyini qeyd edib.

Sonda Qədim Musiqi Alətləri ansamblının ifasında "Əbdülqadir Marağayinin bəstəsinə kompozisiya", həmçinin digər musiqi nümunələri səsləndirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***